**Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması ilə əlaqədar bəzi tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1994-cü ildə təməli "Əsrin müqaviləsi" ilə qoyulmuş Prezident Heydər Əliyevin müasir neft strategiyası Azərbaycan Respublikasının iqtisadi və siyasi həyatında müstəsna əhəmiyyətli rol oynamış, nəticədə ölkəmizin inkişafında böyük nailiyyətlər əldə edilmiş, uzunmüddətli beynəlxalq əməkdaşlıq istiqamətində mühüm addımlar atılmışdır. Ötən müddət ərzində uğurla həyata keçirilən bir sıra nəhəng layihələr, xüsusilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin və Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz Boru Kəmərinin tikintisi Xəzər hövzəsində enerjidaşıyıcılarının etibarlı nəqletmə şəbəkələrinin yaradılmasına, habelə regional inteqrasiyanın genişləndirilməsinə güclü təkan vermişdir.

Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında imzalanmış Ankara, İstanbul və Bakı bəyannamələrin də Şərq-Qərb Enerji Dəhlizinin yaradılması və bu dəhliz çərçivəsində əsas ixrac boru kəməri kimi Bakı-Tbilisi-Ceyhan layihəsi dəstəklənmişdir.

Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması zamanı ölkəmizin maraqlarının ardıcıl şəkildə təmin edilməsi, iqtisadi, hüquqi, ekoloji, texniki və başqa aspektlərin ətraflı araşdırılması, habelə digər tədbirlərin görülməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin həlli üçün aşağıdakı tərkibdə komissiya yaradılsın:[1]

**Komissiyanın sədri**

Abid **Şərifov** - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiya sədrinin müavini**

Rövnəq **Abdullayev** - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

**Komissiyanın üzvləri:**

Şahmar **Mövsümov** - Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru

Xələf **Xələfov** - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Sevinc **Həsənova** - Azərbaycan Respublikası iqtisadiyyat ~~və sənaye~~ nazirinin müavini[2]

Toğrul **Musayev** - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

*Elmir **Vəlizadə*** - *Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*[3]

Azər **Bayramov** - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Natiq **Əmirov** - Azərbaycan Respublikası vergilər nazirinin müavini

Firdovsi **Əliyev** - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Səfər **Mehdiyev** - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Rauf **Vəliyev** - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri[4]

Vaqif **Əliyev** - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sərmayələr İdarəsinin rəisi

2. Bu Sərəncamın 1-ci bəndinə əsasən yaradılmış Komissiyaya tapşırılsın ki, Azərbaycan Respublikasının ərazisindən Qazaxıstan neftinin nəql edilməsi məsələlərinin işlənib hazırlanması ilə əlaqədar zəruri olan tədbirləri görsün və müvafiq sazişlərin layihələri hazırlandıqdan sonra onları baxılmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 sentyabr 2005-ci il
1000

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 22 iyul 2009-cu il tarixli 412 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ( **"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**)
2. 11 aprel 2014-cü il tarixli **376** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 12 aprel 2014-cü il, 73)**
3. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)

4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )

5. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 22 iyul 2009-cu il tarixli 412 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ( **"Azərbaycan" qəzeti 29 iyul 2009-cu il, 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 589**) ilə 1-ci bəndində "**Natiq Əliyev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti**" sözləri "**Rövnəq Abdullayev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti** " sözləri ilə, "**Samir Şərifov - Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru**" sözləri "**Şahmar Mövsümov - Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru**" sözləri ilə, "**Mikayıl Cabbarov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini** " sözləri "**Sevinc Həsənova - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri ilə, "**Aydın Əliyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini**" sözləri "**Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini** " sözləri ilə, "**Valeh Ələsgərov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici Sərmayələr İdarəsinin rəisi**" sözləri "**Vaqif Əliyev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sərmayələr İdarəsinin rəisi**" sözləri ilə əvəz edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye**" sözləri ilə əvəz edilmişdir.

[2] 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

[3] 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini**" sözləri "**Elmir Vəlizadə - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

[4] 11 aprel 2014-cü il tarixli **376** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 12 aprel 2014-cü il, 73**) ilə 1-ci hissəsində "**Rəfael Rəhmanov - Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi rəisinin birinci müavini** " sözləri "**Rauf Vəliyev - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri**" sözləri ilə əvəz edilmişdir.